TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI

ONUNCU İCLAS

14 mart 2025-ci il, Bişkek

TÖVSİYƏ QƏRARI

TÜRKPA ÜZV DÖVLƏTLƏRİNİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ KONTEKSTİNDƏ EKOLOJİ DAVAMLILIQ VƏ YAŞIL DÜNYA ÜZRƏ ƏMƏKDAŞLIĞI

Parlament Assambleyası**:**

Dünyanın dayanıqlı inkişaf yoluna istiqamətləndirilməsində əsaslı qlobal öhdəlik kimi 2030 Gündəliyini və onun Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) ***nəzərə alaraq;***

Strategiyaların və DİM-lərin daha səmərəli həyata keçirilməsinə dəstək mexanizmlərinin müəyyən edilməsində parlamentlərin fəal rolunu ***vurğulayaraq;***

Fəlakətlərə hazırlıq və effektiv cavab tədbirləri üçün səylərin artırılması məqsədini daşıyan 2015-2030-cu illər üçün Fəlakət Riskinin Azaldılması üzrə Sendai Çərçivəsini ***vurğulayaraq;***

Həmçinin, iqlim dəyişikliyi ilə bağlı təcili təhlükə ilə effektiv mübarizə üçün Paris Sazişini ***vurğulayaraq;***

Üzv parlamentlərin beynəlxalq və regional təşkilatlarla qarşılıqlı əlaqələri vasitəsilə DİM-lər sahəsində əməkdaşlığını ***qeyd edərək;***

Parlamentlərarası koordinasiyanı gücləndirməklə 2030 Gündəliyinin həyata keçirilməsinin dəstəkləməsində TÜRKPA-nın səylərinə güclü əminliyi ***vurğulayaraq;***

Planetin iqtisadi, sosial və ekoloji cəhətdən davamlı gələcəyi naminə insanların, hökumətlərin, vətəndaş cəmiyyətinin və özəl sektorun geniş birliyinin fəaliyyətini ***dəstəkləyərək;***

TÜRKPA üzv dövlətlərinin müvafiq qurumlarının nailiyyətlərinin möhkəmləndirilməsi istiqamətində səylərini ***alqışlayaraq;***

TÜRKPA üzv dövlətlərinin bu sahədə qoşulduğu və qəbul etdiyi beynəlxalq konvensiyaları və qanunları ***qeyd edərək;***

Parlamentlərarası əməkdaşlığın inkişafında mühüm alət kimi parlament komitələrinin qarşılıqlı fəaliyyətini və bu kontekstdə TÜRKPA çərçivəsində müvafiq komitələrin iclaslarının əhəmiyyətini ***vurğulayaraq;***

TÜRKPA-nın üzv dövlətlərinin parlamentlərinə tövsiyə edir:

a) tullantıların enerjiyə çevrilməsi üçün regional strategiyaların hazırlanmasında əməkdaşlıq edərək, Sıfır Tullantı təşəbbüsü kimi tullantıların idarə olunması, təkrar emal texnologiyaları və enerjiyə çevrilməsi təşəbbüsləri üzrə birgə siyasətin həyata *keçirilməsi;*

b) DİM-lərin həyata keçirilməsi üzrə parlamentlərin ən yaxşı təcrübələrinin mübadiləsini paylaşa biləcəyi tədbirlərin *təşkil edilməsi;*

c) biomüxtəlifliyi və ekosistemləri qoruyarkən ərzaq təhlükəsizliyini yaxşılaşdıran davamlı kənd təsərrüfatı təcrübələrinin *təşviq edilməsi;*

d) meşələrin, bataqlıq ərazilərin, nəsli kəsilməkdə olan növlərin, onların yaşayış yerlərinin və regional biomüxtəlifliyə töhfə verən digər həyati vacib ekosistemlərin mühafizəsi və dayanıqlı idarəetməyə bərpasına diqqət yetirərək biomüxtəlifliyin qorunması üzrə əməkdaşlığın *gücləndirilməsi;*

e) dayanıqlı inkişaf və onun problemləri ilə yaşıl dünya haqqında ictimai anlayışı artırmaq üçün ekoloji maarifləndirmə və potensialın gücləndirilməsi proqramlarının *dəstəklənməsi;*

f) TÜRKPA üzv dövlətlərinin karbon izlərini azaltmağa və daha yaxşı ictimai nəqliyyat sistemləri, yaşıl məkanlar və enerjiyə qənaət edən binalara malik yaşıl şəhərlərdə davamlı yaşamağa *təşviq edilməsi;*

g) iqlim dəyişikliyi səbəbindən sayı və intensivliyi artan təbii fəlakətlərə qarşı dayanıqlılığın formalaşdırılması üçün regional əməkdaşlığın genişləndirilməsi və meşə yanğınları, sel və daşqınlarla birlikdə digər fövqəladə hallar zamanı fəlakət riskinin azaldılması və fəlakətdən sonra cavab tədbirləri üzrə təcrübələrin *paylaşılması;*

h) dayanıqlı inkişafa nail olmaq üçün iqlim dəyişikliyinə uyğunlaşma fəaliyyətinin *gücləndirilməsi;*

i) təmiz enerjiyə keçidin *təşviq edilməsi* və bu kontekstdə ekoloji dayanıqlığın və yaşıl genişlənmənin təmin edilməsində nüvə enerjisinin rolunun *nəzərdən keçirilməsi;*

j) dayanıqlı istehlak və istehsalın *qəbul edilməsi və dəstəklənməsi;*

k) su ehtiyatlarının qorunması və keyfiyyətinin yaxşılaşdırılması, qısa, orta və uzunmüddətli dövrdə mühafizə-istifadə balansına riayət etməklə sudan qənaətlə istifadənin *təmin edilməsi;*

l) ən yüksək xərc-gəlir nisbəti nəzərə alınmaqla alternativ su mənbəyi yanaşması ilə yaranan tullantı sularının təmizlənməsi və təmizlənmiş çirkab suların təkrar istifadəsindən təmizlənmiş lilin qiymətləndirilməsinə qədər tullantı sularının idarə edilməsinə *vahid yanaşma;*

m) TÜRKPA üzv ölkələri arasında səhralaşma, torpaqların deqradasiyası və quraqlıqla mübarizə üzrə məlumat, təcrübə və yaxşı təcrübələrin *mübadiləsi.*